# ƏDƏBİYYATŞÜNASLIQ

**BƏSİRƏ ƏZIZƏLİYEVA**
**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,**
**H.Cavid 31**
**Filologiya elmləri doktoru**
**besi.azizali@gmail.com**

## M.İQBALIN “ZARB-İ KELİM” ƏSƏRİNDƏ QADIN VƏ CƏMİYYƏT MƏSƏLƏLƏRİ

**Xülasə**

Pakistanlı islam alimi, filosofu, şairi və ictimai xadimi Məhəmməd İqbalın yaradıcılığında “Zarb-i Kelim” əsəri əhəmiyyətli yer tutur. M.İqbal “Zarb-i Kelim” əsərinə daxil olan “Qadın” bölümündə qadın mövzununu müxtəlif aspektlərdən qələmə almış, qadının cəmiyyətdə mövqeyini müəyyən edən cəhətləri önə çəkmişdir. Bu mövzu çərçivəsində filosof şair müasiri olduğu zaman üçün Şərq və Qərb dünyasındakı tendensiyalara öz münasibətini bildirmiş, ifrat meyllər və təqlidçiliyi kəskin şəkildə tənqid etmişdir. İslam alimi olaraq M.İqbal bir çox digər məsələlərdə olduğu kimi, qadınla bağlı fikirlərdə də dini dünyagörüşünü mühafizə etmiş, adət-ənənələrin yeniliyə zidd olmadığı, islam düşüncəsinin müasirliyi mövqeyindən çıxış etmişdi.

Mənzum şəkildə yazılmış əsər altı əsas bölmədən ibarətdir: “İslam və müsəlman”, “Təhsil və tədris”, “Qadın”, “Ədəbiyyat və incəsənət”, “Şərq və Qərb siyasəti”, “Hicaz ərməğanı”. Əsərin hər bir bölməsi ictimai-siyasi həyatın vacib məsələlərinə həsr olunmuş, ədəbi-mədəni, dini, fəlsəfi xüsusiyyətləri şərh etmişdir.

**Açar sözlər:** Məhəmməd İqbal, “Zarb-i Kelim”, qadın, Şərq, Qərb

Məhəmməd İqbalın “Zarb-i Kelim” əsəri urdu dilində yazılmış və 1936-cı ildə nəşr olunmuşdur. Mənzum şəkildə yazılmış əsər altı əsas bölmədən ibarətdir: “İslam və müsəlman”, “Təhsil və tədris”, “Qadın”, “Ədəbiyyat və incəsənət”, “Şərq və Qərb siyasəti”, “Hicaz ərməğanı”. Əsərin hər bir bölməsi ictimai-siyasi həyatın vacib məsələlərinə həsr olunmuş, ədəbi-mədəni, dini, fəlsəfi xüsusiyyətləri şərh edir. İqbalşünas alim Çişti belə hesab edir ki, bu əsərdə bütün məsələlər islami dəyərlər çərçivəsində incələndiyi üçün ən azından urdu və fars dilində bu səviyyədə əsər yoxdur (5, 13).

“Zarb-i Kelim” əsəri M.İqbalın zamanın problemlərinə, ziddiyyətlərinə qarşı savaşıdır, buna görə də əsərin üslubu da digər kitablarına nistəbətdə daha kəskin və qətidir. Əsərin 2014-cü ildə nəşr olunmuş nümunəsinin girişində deyilir: “Bu Məhəmməd İqbalın siyasi görüşlərinin ifadəsi hesab etdiyi üçüncü şeir tplusudur. Əsər “Müasir dövrə qarşı döyüş bəyənnaməsi” adı ilə nəşr olunmuşdur. “Şərqin şairi” kimi də tanınan Məhəmməd İqbal müasir problemlərin, məzlum xalqların, xüsusən də Hindistan müsəlmanlarının işğalı və istismarı ilə qidalanan müasir sivilizasiyanın Allahsızlıq, materialism və ədalətsizlikdən qaynaqlandığını iddia edir” (6, s. 10).

Əsərin türk dilinə tərcüməçisi Cəlal Soydan yazır: "İqbal "Musa vuruşu" adını bu əsərindən daha əvvəllər, xüsusilə də, fars dilli əsərlərində işlədiyi mövzuları daha sistemli bir vəziyyətə gətirərək hər birinə ayrıca başlıqlar verməklə oxuculara təqdim etmişdir. Lakin bu əsərdəki üslubu çox kəskin və qətidir. Çünki əsərin adına yaraşan şəkildə vuruşlar etmək istəməsi onun üslubunu kəskinləşdirmişdir" (5, s. 13).

Filosof şairin özü də əsəri "Zamana qarşı savaş elanı" (3, s. 11) adlandırır:

Azad yaradılışın durmaq vərdişi yoxdur,
Gəzib duran hava kimi bahar havası yarat.
Minlərcə qaynaq fışqırsın yolundakı daşlardan
Mənliyə gömülüb Musa vuruşu yarat (3, s. 11).

"Zarb-i Kelim" əsərində bölümlərdən biri də qadın məsələsinə həsr olunmuşdur. Burada "Avropa kişisi", "Bir sual", "Örtünmə", "İnziva", "Kadın", "Qadınların azadlığı", "Qadının qorunması", "Qadın və təhsil", "Qadın" kimi yarımbaşlıqlarda M.İqbal qadınların cəmiyyətdəki yeri, təhsili, maddi və mənəvi inkişafı, Şərq və Qərb dünyasında qadına münasibət kimi cəhətlər şərh olunmuşdur. Bir sıra digər əsərlərində də mövzu seçdiyi qadın məsələsinin şair həlli müşkül olan, lakin bunun qadınlardan deyil, digər xüsusiyyətlərdən qaynaqlandığı dilə gətirir. "Avropa kişisi" şeirndə yazır:

Müdriklər minlərcə dəfə çözdülər, lakin
Qadın məsələsi olduğu yerdə qaldı (3, s. 127).

Qadınlara hörmətlə yanaşan, onlara hər zaman həssalıqla baxan İqbal qadınların doğru yolda olduqlarını göstərmək üçün ay və ulduzların şahid olduğunu ifadə edir. Bununla filosof şair qadınların mükəmməl yaradılışına işarə edir, onların mənəvi cəhətlərinə diqqəti yönəldir:

Bu məsələdə qadınların heç bir qüsuru yoxdur

Ay və ulduz onun dürüstlüyünə şahiddir (3, s.127).

M.İqbal belə hesab edir ki, yaradılışın mükəmməl nümunəsi olan qadın Avropada problem halına gəlib çıxmışdır ki, bu da daha çox kişilərin qadına münasibətindən irəli gəlirdi:

Fəsad Avropa cəmiyyətində ortaya çıxmışdır,
Çünki kişisi saf və zavallıdır, qadınını tanıya bilmədi (3, s. 127).

Məlumdur ki, XIX əsrin ikinci yarısından, xüsusilə də, yüzilliyin sonlarından etibarən mədəniyyət və ədəbiyyatda maarifçilik mərhələsini yaşayan Şərq dünyasında qadın məsələsi əsas müzakirə obyektlərindən biri idi. Maarifçilik mərhələsi ədəbiyyatda bir sıra digər mövzular kimi, qadın probleminin çözümündə də fərqli keyfiyyətlərdə təzahür edir, qabaqcıl maarifçi mütəfəkkir və ədiblər mövzunun sosial və ictimai tərəflərinə daha çox diqqət yetirirdilər. İctimai şüurun inkişafı, cəmiyyəti düşündürən müxtəlif məsələlərin bədii təfəkkürə inteqrasiyası qadın probleminin ifadəsində aparıcı mövqedə idi.

Qadın mövzusuna xüsusi diqqət yetirilməsi İslam modernizmi üçün də xarakterik idi. Ərəb cəmiyyətində qadınların hüquq bərabərsizliyi islamın insanların bərabərliyi ideyasına ziddiyyət təşkil edirdi. Maarifçilər, ilk növbədə, həmin mövqeyi əsaslandırmağa çalışaraq, eyni zamanda, islami dünyagörüşün mütərəqqiliyini təsdiq edirdilər. Müsəlman cəmiyyətində qadınların sosial və mənəvi əsarəti tendensiyasına ən güclü cavab elə "Quran"ın qadına münasibətinin şərhi idi. "Qurani-Kərim qadının cəmiyyətdəki yerini və hörmətini yüksəklərə qaldırır. Onun kişi ilə birlikdə ailədə xüsusi mövqe sahibi olduğunu, uşaqların tərbiyəsində ata ilə yanaşı, məsuliyyət daşıdığını bildirir" (1, s. 157). Görkəmli şərqşünas Z.Bunyadov haqlı

olaraq islamın müqəddəs kitabının kişilərə qadınla zərif bir məxluq kimi nəzakətlə rəftar etmək, onun ehtiramını saxlamaq, mehr, mal-dövlət məsələlərində onlara güzəştə getməyi tövsiyə etdiyini qeyd edir (1, s. 157). Bu baxımdan çoxsaylı nümunələr göstərmək mümkündür. “Quran” da deyilir: “Allahın (maddi, yaxud mənəvi cəhətdən) birinizi digərinizdən üstün tutduğu (birinizə digərinizdən artıq verdiyi) şeyi (özünüz) arzulamayın, kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payı vardır”(4, s. 87). Allahın insana verdiyi təbii hüquqların müasir cəmiyyətdə pozulması maarifçilərin əsas tənqid hədəfinə çevrilmişdir ki, qadınların hüquq bərabərliyi məsələsi də burada yer alırdı.

Qadın mövzusunun işlənməsində ən mühüm cəhətlərdən biri qadınların təhsili ilə bağlı idi ki, İslam modernizminin nümayəndələri din və elm probleminə diqqət yetirir, müasir elmi məsələləri “Quran”ın teoloji xüsusiyyətləri əsasında şərh edirdilər. Bu cəhət də çox vacib amillərlə əlaqədar olaraq islamın elmə zidd olması tendensiyasının ictimai və bədii şüurda güclü şəkildə cavablandırılması idi.

M.İqbalın ədəbi-fəlsəfi dünyagörüşü üçün də bu tendensiya xarakterik idi, bir islam alimi olaraq mütəfəkki ədib qadın məsələsinə, ilk növbədə, islam düşüncəsi prizmasından baxırdı. “Qadın” şeirində ona verdiyi dəyəri belə ifadə edir:

Qadının varlığı idi kainat rəsmindəki rəng
Onun ahəngiylədir həyatın iç yanğısı.

O bir ovuc torpaq, Ülkər ulduzundan daha nəcibdir
Çünki hər nəciblik mücəvvər qutusunda bir incidir! (3, s. 131).

M.İqbal qadına bir nəticə kimi deyil, daha çox səbəb kimi yanaşır. Qadının varlığı onun əməllərindən çox, yaradılış missiyasında, səbəb olduğu xeyirli əməllərdədir. Sözügedən fikri filosof şair özünəməxsus şəkildə ifadə edir:

Əflatun dialoqları yaza bilmədi qadın, lakin
Onun alovu ilə alışdı Əflatun qığılcımı! (3, s. 131).

M.İqbal bu misralardan da göründüyü kimi, qadını yer və göy arasında, torpaq və ulduz arasında dəyərli bir inciyə bənzədir, ikinci beytdə “mücəvvər qutusunda bir incidir!” deməklə isə başqa bir məsələyə, qadınların örtülməsi məsələsinə işarə edir. Filosof şair Avropada təhsil alsa da, Şərq qadınlarının, xüsusilə də Pakistan qadınlarının örtülməsi mövqeyindən çıxış edirdi. Ədibin 1929-1932-ci illər arasında yazdığı “Cavidnamə” mənzuməsində də həmin cəhətləri daha öncəki yaradıcılıq nümunəsində müşahidə edirik. Şair “Quran”a dönüşü və bütün yeni məsələlərin kökünü də onda aramağı vacib sayır:

Müsəlmanlar kimi qəlbin varsa,
Öz içinə bax və bir də Qurana.
Onun ayətlərində yüzlərcə yeni dünya
Əsrlər dolanmış onun hər anına!
Onun bir dünyası çağımıza bədəl
Göksündə duyan könül varsa gəl! (2, s. 85)

Sözügedən əsərdə “Quranın məqsəd və hədəfi başqa, Müsəlmanın adət və ənənəsi başqa” (3, s. 101) deməklə M.İqbal qadın məsələsində də Qərb təqlidini deyil, müsəlman dünyasının ənənələrini əsas götürməyin tərəfdarı kimi çıxış edir.

“Zarb-i Kelim” əsərininin “Qadın” bölməsində də filosof şair “Örtünmə” adlı ayrıca bir şeir təqdim etmişdir. Burada şair mövzuya fəlsəfi nöqteyi-nəzərdən yanaşmış, orijinal üslubdan istifadə edərək örtünməyi bir xarici forma görüntüsü kimi deyil, insanın bəsirət gözünün örtülü olması baxımından şərh etmişdir. İlk növbədə, M.İqbal deməyə çalışır ki, forma dəyişməsi, xarici təzahür mahiyyəti dəyişmir, əsrlər örtdükcə yeni təzahürlər meydana çıxsa da, o yalnız mahiyyətin bir pərdəsinə çevrilir, ona görə də, ziddiyyətlər, problemlər də yeni forma alır, çözülmür, həllini tapmır:

Çox rəng dəyişmişdir bu göylər, amma
Ey Allahım bu dünya hər zaman eyni yerdədir (3, s. 129).

M.İqbal qadının üzərindəki örtüyü qaldırmaqdan daha çox, kişilərin, əslində isə bütün cəmiyyətin, insanlığın bəsirət gözü qarşısındakı pərdəni, örtüyü qaldırmağı daha vacib hesab edir:

Fərq görmədim kişi ilə qadın arasında
Bu da örtünməkdədir, o da örtünməkdədir.

Hələ də örtülər altındadır insan oğlu,
Kimsənin mənliyi ortaya çıxmamış (3, s. 129).

Qadınların təhsili və azadlığı məsələsinə də M.İqbal bir sıra əsərlərində olduğu kimi burada öz münasibətini ifadə etmişdir. Qadınların cəmiyyətdəki mövqeyini şərh edərkən filosof şair, ilk növbədə, bunun kişilərin onlara münasibəti ilə bağlı olduğunu düşünür. Bu məsələyə böyük həssalıqla yanaşdığını “mənim sinəmdə canlı bir həqiqət gizlidir, Damarlarında soyuq qan dolaşan bunu anlamaz” (3, s. 133) misraları ilə ifadə edən M.İqbal “Qadının qorunması” şeirində yazır:

Nə niqab, nə köhnə və ya yeni təhsil,
Qadının qadınlığın qoruyan yalnız kişidir (3, s. 133).

M.İqbal həmin fikrin milli inkişaf üçün çox önəmli olduğunu söyləməklə, bütövlükdə milli-mənəvi və ictimai inkişafda qadının roluna diqqət çəkməyə çalışır:

Bu canlı həqiqəti bir millət anlaya bilməmişsə,
O millətin günəşi çox tez batmışdır (3, s. 133).

Qadınların azadlığı məsələsinə də M.İqbal ayrıca şeir həsr etmiş, bu mövzunu da orijinal düşüncə tərzi ilə dəyərləndirmişdir. “Qadınların azadlığı” adlı şeirdən də məlum olur ki, filosof şairin zamanında sözügedən mövzu çok aktual olmuş və onun fikirləri bir sıra məqamlarda qəbul edilməmiş, əks mövqe kimi qiymətləndirilmişdir:

Bu mübahisədə heç bir qərara gələməm,
Gərçi birinin şəkər, digərinin də zəhər olduğunu bilirəm.

Danışıb daha çox düşmən qazanmaqda nə fayda,
Sivilizasiyanın uşaqları mənə zatən küskündürlər (3, s. 132).

M.İqbal qadın azadlığının tərəfdarı kimi çıxış edir, lakin şair bunu Avropanın təqlidi formasında qəbul etmir, “sivilizasiyanın uşaqları mənə zatən küsküdürlər” dedikdə də sözügedən cəhəti nəzərdə tutur. M.İqbal qadın azadlığı məsələsinə də islam dini çərçivəsində

yanaşır, qadınların forma dəyişməsini deyil, bəsirət gözünün açılmasını əsas hesab edir, eyni zamanda, qadınların öz təşəbbüslərini vacib sayır:

Bu sirri yalnız qadının bəsirəti ifşa etsin,
Müdriklər bu mövzuda gücsüz və mazurdurlar

Hansı daha üstündür süs və dəyərdə?
Qadın özgürlüyümü, zümrüd boyunbağımı? (3, s. 132).

Göründüyü kimi, M.İqbal mənəvi inkişafın, onun mühüm bir göstəricisi olan azadlığın, daxili təkamülün xarici bəzəklərdən, qiymətli daşlardan daha üstün olduğunu düşünərək bunu qadınların mühakiməsinə buraxır, bəsirətli qadın zəkasının bu işi həllə edə biləcəyinə inamını iafdə edir.

"Qadın və təhsil" şeirində M.İqbal mövzunu yenə də Şərq və Qərb konteksində təqdim edir. Burada sivilizasiya və din, yenilik və islam dini, Qərbin təqlidi və milli ənənələr kimi şairin dövrü üçün aktual olan məsələlər ərtafında M.İqbalın uzun illər düşündüyünü və bu şeirində daha kəskin formada dilə gətirdiyini müşahidə edirik. Çünki hələ daha öncə yazdığı "Cavidnamə" əsərində şair deyirdi:

Bu yeni adətli çağın dininə bax,
Dinsizlik təhsilinin məhsuluna bax! (3, s. 144).

Eyni fikirləri daha qəti şəkildə "Qadın və təhsil" şeirində görmək mümkündür. Filosof şair digər məsələlərdə olduğu kimi qadın mövzusunda da problemin həllində balansı qorumağı, ifratçılığa meyl etməməyi düzgün hesab edir. Çünki M.İqbal Qərbdə təhsil alan və Avropa həyatını dərindən bilən bir insan kimi, Şərq cəmiyyəti üçün önəmli olan dəyərlərin müasirlik adı ilə yox olması təhlükəsinə qarşı çıxırdı. Ona görə də şair qadının təhsilində müasir elmlərlə yanaşı, ənənəvi meylərin də davam etdirməsinin vacibliyini düşünürdü:

Qərb mədəniyyəti əgər analığın ölümüdürsə,
O mədəniyyətin meyvəsi insanlığın ölümüdür! (3, s. 134)

Bu misralardan da gördüyümüz kimi, M.İqbal qadınların insanlıq tarixindəki həlledici rolunu bir daha önə çəkmiş, bu yolla da onlara verdiyi yüksək dəyəri ifadə etməyə çalışmışdır.

Filosof şair qadınların varlığını mühafizə edən, onların özəlliklərini qoruyan elm və təhsilin tərəfdarı kimi çıxış edir:

Bir elmin təsiri ilə qadın qadınlığından çıxırsa,
Bəsirət sahiblərinə görə o ilmə qadının ölümüdür.

Əgər qız məktəbləri dindən uzaq durursa,
O elm və sənət eşq və sevginin ölümüdür! (3, s. 134).

Göründüyü kimi, M.İqbal bütün digər məsələlərdə olduğu kimi, qadının təhsili sahəsində də islam dininin düşüncə sistemindən çıxış edir. Şairin, eyni zamanda, qadının ilk və əsas missiyasının analıq olması fikrinə sahib olduğunu da bu və digər əsərlərindən müşahidə edirik. Bu cəhəti "Qadın" şeirində daha açıq şəkildə görürük.

Şeirdə M.İqbal qadınların yaradılış gücünə diqqəti yönəldir. Qadınların varlığının bu məqamda önə çıxması və dəyər qazanması, şairə görə, onun cəmiyyətdəki mövqeyini də müəyyənləşdirir:

Məhz bu hərarətlə qatlandığı acı arsusu onun sirridir.
Yaratmaq zövqünün atəşiylədir onun varlığı.

Həyatın sirrləri məhz bu atəşlə ortaya çıxmaqdadır,
Yalnız bu atəşlə canlı olmaqdadır dünyanın varlığı (3, s.135).

Ona görə də M.İqbal qadınları analıqdan məhrum edən Qərb tendensiyasını qəbul etmir, "Avropaya heyranlığın" müəyyən bir çərçivə içində həllini müzakirəyə gətirir. "Hind və yunanların heyran olduqları Avropa müdriklərindən biri soruşsun" (3, s. 128) misraları ilə başlayan "Bir sual" şeirində yazır:

Budurmu mükəmməl cəmiyyət forması?
Kişisi avara, qadınının isə qucağı boş qalsın" (3, s. 128).

Qadın haqqındakı fəlsəfi şeirlərində M.İqbalın sufi düşüncələrinə də təsadüf edirik. Filosof şair müasiri olduğu dünyanın "özünü göstərmə həvəsi"dən (s. 130) şikayətlənir, "düşüncələri dağınıq və pozğun" (3, s. 130) hala gətirən ifrat meyllərdən uzaqlaşmağa çalışır, mənlik həqiqətlərini dərk etmək üçün inzivaya çəkilməyi vacib sayır:

Mənlik özünü inzivada dərk edir, lakin
O inziva artıq nə bütxanədə, nə Hərəmdə var (3, s. 130).

Göründüyü kimi, M.İqbal "Zarb-i Kelim" əsərinə daxil olan "Qadın" bölümündə qadın mövzununu müxtəlif aspektlərdən qələmə almış, qadının cəmiyyətdə mövqeyini müəyyən edən cəhətləri önə çəkmişdir. Bu mövzu çərçivəsində filosof şair müasiri olduğu zaman üçün Şərq və Qərb dünyasındakı tendensiyalara öz münasibətini bildirmiş, ifrat meyllər və təqlidçiliyi kəskin şəkildə tənqid etmişdir. İslam alimi olaraq M.İqbal bir çox digər məsələlərdə olduğu kimi, qadınla bağlı fikirlərdə də dini dünyagörüşünü mühafizə etmiş, adət-ənənələrin yeniliyə zidd olmadığı, islam düşüncəsinin müasirliyi mövqeyindən çıxış etmişdi.

Ədəbiyyat:


1. Bünyadov Z.M. Dinlər, təriqətlər, məzhəblər. Bakı, Şərq-Qərb, 2007.
2. İkbal Muhammed. Cavidname. Tercüme Eden: Halil Toker, İstanbul, Kaknüs Yayınları, 2014.
3. İkbal Muhammed. Musa Vuruşu. Hicaz Armağanı. Tercüme Eden: Celal Soydan, Ankara, Hece Yayınları, 2013.
4. Quran (Tərcümə edənlər: Z.Bünyadov, V.Məmmədəliyev). Bakı: Möminin nəşriyyatı, 2000.
5. Soydan Celal. Önsöz. İkbal Muhammed. Musa Vuruşu. Hicaz Armağanı. Tercüme Eden: Celal Soydan, Ankara, Hece Yayınları, 2013.
6. İntroduction "Zarb i Kalim". Iqbal Academy Pakistan. Retrieved 14 November 2014.


Басира Азизалиева

Вопросы женщины и общества в произведении «зарб-и-келим» м.игбала

Резюме

В творчестве ученого–исламиста, философа, поэта и общественного деятеля пакистанского происхождения Мухаммед Игбала произведение «Зарб-и-Келим» занимает значимое место. В главе «Женщина», включенного в произведение «Зарб-и-Келим» М.Игбал описал тему женщины с разных аспектов, передвинув на передний план стороны, определяющие позицию женщины в обществе. Поэт-философ в рамках этой

темы высказал свое отношение к Восточным и Западным тенденциям своего периода, резко раскритиковал крайности и плагиат. М.Игбал как ученый-исламист сохранил свое религиозное мировоззрение в своем мнении о женщине, выступил с позиции современности исламского мышления, что обычаи и традиции отнюдь не противоречат новизне.

Произведение, написанное в стихах, имеет шесть основных частей: «Ислам и мусульманин», «Образование и обучение», «Женщина», «Литература и искусство», «Политика Запада и Востока», «Подарок Хиджаза». Каждая глава произведения посвящена важным вопросам общественно-политической жизни, истолковывается литературно-культурные, религиозные, философические особенности.

**Ключевые слова:** Мухаммед Игбал, «Зарб-и-Келим», женщина, Восток, Запад

Basira Azizaliyeva

**Issues of a woman and society in the work “zarb-i-kelim” by m. iqbal**

Summary

In the work of the scientist-Islamist, philosopher, poet and public figure of Pakistani origin Muhammed Iqbal, the work “Zarb-i-Kelim” occupies a significant place.

In the chapter “Woman”, included in the work “Zarb-i-Kelim”, M. Iqbal described the topic of women from various aspects, moving to the forefront the sides that determine the position of women in society.

The poet philosopher, in the framework of this topic, expressed his attitude to the Eastern and Western trends of his period, sharply criticized extremes and plagiarism. M. Iqbal, as an Islamist scholar, retained his religious worldview in his opinion about women, spoke out from the perspective of Islamic thinking today, that customs and traditions are by no means contrary to novelty.

The work, written in the form of poems, has six main parts: “Islam and the Muslim”, “Education and Learning”, “Woman”, “Literature and Art”, “Politics of the West and the East”, “Gift of the Hijaz”. Each chapter of the work is devoted to important issues of social and political life, where literary, cultural, religious, philosophical features are interpreted.

**Key words:** Muhammed Iqbal, “Zarb-i-Kelim”, women, East and West

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 01.08..2019
Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov tərəfindən çapa tövsiyə olunmuşdur.